**“Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 4, maddə 223; 2014, 9, maddə 1061) dəyişikliklər təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2019-cu il
524

Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 7 fevral tarixli 524 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**“Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında dəyişikliklər**

“Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 4, maddə 223; 2014, 9, maddə 1061) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin nümunəsi” üzrə:

1.1. üz tərəfində “IN THE TERRITORY” sözləri “WITHIN THE TERRITORY” sözləri ilə əvəz edilsin;

1.2. arxa tərəfində “Authority” sözü “Issuing authority” sözləri ilə, “officer” sözü “authorized person” sözləri ilə, “produced” sözü “presented” sözü ilə əvəz edilsin və “its holder” sözləri çıxarılsın.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin nümunəsi” üzrə:

2.1. üz tərəfində “IN THE TERRITORY” sözləri “WITHIN THE TERRITORY” sözləri ilə əvəz edilsin;

2.2. arxa tərəfində “Authority” sözü “Issuing authority” sözləri ilə, “officer” sözü “authorized person” sözləri ilə, “produced” sözü “presented” sözü ilə əvəz edilsin və “him/her” sözləri çıxarılsın.

3. Həmin Fərmanla təsdiq edilmiş “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın nümunəsi”ndə “DECISION of the State Migration Service of the Republic of Azerbaijan on extension of temporary stay period in the Republic of Azerbaijan for foreigners and stateless persons” sözləri “State Migration Service of the Republic of Azerbaijan DECISION on extension of temporary staying period of foreigners and stateless persons in the Republic of Azerbaijan” sözləri ilə, “The State” sözləri “State” sözü ilə, “born in” sözləri “born” sözü ilə, “the temporary stay” sözləri “temporary staying” sözləri ilə, “till” sözü “untill” sözü ilə, “produced” sözü “presented” sözü ilə, “Head of the State Migration Service” sözləri “Chief of State Migration Service” sözləri ilə əvəz edilsin, “authority” sözündən əvvəl “issuing” sözü əlavə edilsin və “its holder” sözləri çıxarılsın.